

**Nadir İsmayılov – 60**

# MÜƏLLİMLİK VƏ ALİMLİK ŞƏRƏFİ

*Xəlil İSMAYILOV*
*Bakı Dövlət Universiteti*
*Kitabxana resursları və informasiya*
*axtarış sistemləri kafedrasının müdiri,*
*tarix elmləri doktoru, professor,*
*Knyaz ASLAN*
*Bakı Dövlət Universiteti*
*Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının*
*müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Qədim yunan filosofu Platon deyirdi: "Müəllimlik hər şeydən əvvəl bir tanrı sənətidir". Dahi Azərbaycan alimi Nəsrəddin Tusi isə "İnsanı kamilliyə çatdırmaq məqsədi güdən sənət dünya sənətlərinin ən şərəflisi olmalıdır" deyərkən sanki müəllimlik sənətini nəzərdə tuturdu. Keşmiş zamanlardan indiyədək dünyanın ən məşhur elm, mədəniyyət və ədəbiyyat xadimləri həmişə müəllimə öz hörmət və ehtiramlarını bildirmiş, müəllimi günəşə, bağbana, mühəndisə bənzətmişlər. Onların fikrincə, müəllim günəş kimi uşaqların, yeniyetmələrin, gənclərin qəlbini və ağlını işıqlandırır, onlara bağban qayğısı göstərir, mühəndis kimi insan qəlbinin layihəsini cızıb şəkir...

Azərbaycan xalqının belə bir məşhur atalar sözü var: "Alimin sözü cahilin qılıncından qiymətlidir". Müqəddəs kitabımız "Quran"da isə alimlik adı uca tutulur, alimlik ləyaqətindən, alimlik nəcabətindən ehtiramla söz açılır. Qismətinə müəllimlik şərəfi yazılmış, taleyinə alimlik şöhrəti düşmüş əsl ziyalılar həmişə cəmiyyət arasında xüsusi hörmətə və ehtirama malik olmuşlar. Təsadüfi deyil ki, Məhəmməd Peyğəmbər belə buyurmuşdur: "Dünyanı istəyən elmə sarılsın, axirəti istəyən yenə elmə sarılsın".



Müəllimliklə alimliyi öz taleyində qoşalaşdıran, Azərbaycanın kitabxanaşünaslıq və bibliqrafiyaşünaslıq elmində özünəməxsus mövqeyi ilə seçilən istedadlı ziyalılardan biri də pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İsmayılovdur.

60 illik ömrünün bütün günləri, ayları, illəri çoxcəhətli yaradıcılıq uğurları ilə zəngin olan Nadir İsmayılovun ömür yoluna birlikdə nəzər salaq.

Nadir İslam oğlu İsmayılov1956-cı il fevral ayının 5-də Beyləqan rayonunun Əmirzeyidli kəndində anadan olmuşdur. 1973-cü ildə Şahsevən kənd 1 saylı orta məktəbi bitirmişdir.

Ali təhsil almaq arzusu ilə o, 1974-cü ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinə daxil olmuşdur. Əla qiymətlərlə oxuduğuna görə C.Cabbarlı adına təqaüdə layiq görülmüşdür. 1979-cu ildə ali təhsilini fərqlənmə diplomu ilə bitirmişdir.

N.İsmayılov 1979-cu ilin sentyabr-dekabr aylarında M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Elmi-metodiki şöbəsində böyük kitabxanaçı vəzifəsində çalışmışdır.

1979-1982-ci illərdə o, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin Biblioqrafiyaşünaslıq kafedrasının əyani aspirantı olmuş, 1982-ci ildə Biblioqrafiyaşünaslıq kafedrasına müəllim götürülmüşdür.

N.İsmayılov 1987-ci ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Təbabət üzrə məhəlli kitabxana-biblioqrafiya ehtiyatlarının inkişafı, müasir vəziyyəti və təkmilləşdirilməsi yolları (Azərbaycan materialları əsasında)" mövzusunda namizədlik dissertasiyasını Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyevin rəhbərliyi ilə müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır.

1992-ci ildən BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının dosenti olan N.İsmayılov "Azərbaycanın biblioqrafik vəsaitlər sistemi", "Azərbaycanda təbiətşünaslığın biblioqrafiyası", "Sənədşünaslıq", "Biblioqrafiyaşünaslıq", "Biblioqrafiyaşünaslıq fənlərinin tədrisi metodikası", "Soraq-biblioqrafiya xidmətinin təşkili və idarə olunması" və s. fənləri tədris edir.

Dos. Nadir İsmayılov səmərəli elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, həm də təşkilatçılıq və idarəçilik keyfiyyətlətinə görə də diqqəti cəlb edən kadrlardandır. Bu bacarığına görə o, 1994-2003-cü illərdə müxtəlif fasilələrlə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini vəzifəsində çalışmış, 2007-2012-ci illərdə BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdir əvəzi olmuşdur. 2012-ci il fevral ayının 1-də isə Biblioqrafiyaşünaslıq kafedrasının müdiri vəzifəsinə təyin olunmuşdur.

Dos. Nadir İsmayılov 3 monoqrafiyanın, 9 kitabın, 90 məqalənin müəllifidir. Bunlardan "Azərbaycan Respublikasının kitabxana-biblioqrafiya və informasiya resursları: vəziyyəti və təkmilləşdirilməsi yolları" adlı monoqrafiyası (2003, rus dilində), "Azərbaycan biblioqrafiyasının biblioqrafiyası" (2003), "Xəzər dənizi və neft (1954-2002)", "Biblioqrafik tərtibatın metodikası" (2004, R.Vəzirova ilə birlikdə), "Elmi-təbii ədəbiyyatın biblioqrafiyası" (2004),

21085

"Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət (nəzəri-tarixi, təşkilati-metodik məsələləri)" (2004, Q.Hacıyeva ilə birlikdə), "Heydər Əliyev və Azərbaycan elmi" (2010) adlı metodik və biblioqrafik vəsaitləri xüsusilə mühüm əhəmiyyətə malikdir. Bu vəsaitlər bu gün də respublika mütəxəssislərinin tez-tez müraciət etdiyi biblioqrafik mənbələr sırasındadır.

Dos. Nadir İsmayılovun rəhbərlik etdiyi Biblioqrafiyaşünaslıq kafedrası bu sahə üzrə elmi fikrin mərkəzi kimi xüsusi mövqe qazanmışdır. Kafedranın əsas funksiyası biblioqrafik fənlərin tədrisi və biblioqrafiyaşünaslıq istiqamətində elmi-tədqiqat işlərinin aparılmasıdır.

Biblioqrafiyaşünaslıq kafedrasının əməkdaşlarının elmi-tədqiqat istiqaməti Azərbaycan biblioqrafiyasının tarixinin, təşkilinin və idarə olunmasının elmi əsaslarının müəyyənləşdirilməsindən, mövcud biblioqrafik resurslardan səmərəli istifadənin optimallaşdırılmasına təsir edən konsepsiyanın hazırlanmasından ibarətdir. Bu istiqamətdə aparılan tədqiqatların bir qismi Azərbaycan biblioqrafiyasının tarixinin köklü şəkildə öyrənilməsi ilə bağlıdır. Tədqiqatların digər istiqaməti ayrı-ayrı kitabxana və informasiya orqanlarının biblioqrafik fəaliyyətinin öyrənilməsi və ümumiləşdirilməsi ilə əlaqədardır. Son illərdə Biblioqrafiyaşünaslıq kafedrasında aparılan tədqiqatların ayrıca istiqaməti kimi biblioqrafik resursun yerləşməsi və ondan səmərəli istifadə məsələlərinin tədqiqidir. Kafedranın müəllim heyətinin yaradıcılığının kəmiyyət xarakteristikası baxımından təhlili göstərir ki, onlar səmərəli fəaliyyət göstərirlər.

Hazırda Biblioqrafiyaşünaslıq kafedrası milli biblioqrafiyanın tarixi, nəzəri, metodik və təşkilati problemlərini öyrənilməsi üzrə ixtisaslaşmış mərkəzdir. Fəaliyyət göstərdiyi müddətdə kafedrada Azərbaycan biblioqrafiyasının tarixi, bədii ədəbiyyatın, ədəbiyyatşünaslığın, təbabətin, sosial-siyasi ədəbiyyatın, pedaqoji ədəbiyyatın biblioqrafiyasını xarici ölkələrdə biblioqrafiya işi ilə müqayisəli şəkildə tədqiq edilib ümumiləşdirilmişdir. Bununla əlaqədar, Azərbaycanda fəaliyyət göstərən və biblioqrafik fəaliyyətlə yaxından məşğul olan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının, Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının və başqa əlaqədar müəssisələrin biblioqrafik fəaliyyəti əsas tədqiqat obyekti kimi daim kafedranın diqqət mərkəzində durur. Məhz bu tədqiqatların nəticəsində Kitabxanaçılıq-informasiya fakültəsində biblioqrafiyaşünaslıq fənləri silsiləsi formalaşmışdır.

Kafedra müdiri dos. Nadir İsmayılovun əsas tədqiqat sahəsi Azərbaycanda kitabxana-biblioqrafiya resursları, onların yerləşməsi və istifadəsi problemləri, milli biblioqrafiyanın tarixi, nəzəri-metodiki və təşkilati problemləridir. Bu baxımdan biblioqrafiyaşünas alimin son illərdə yazıb müxtəlif elmi jurnallarda dərc etdirdiyi araşdırmalar, o cümlədən "Elektron kataloqun biblioqrafik məlumat bazasının idarəetmə sistemlərinin funksiyaları", "Azərbaycan Respublikasının regionlarında şəhər əhalisinin informasiya təminatının bəzi məsələləri", "Azərbaycanda kitabxanaçılıq-informasiya resurslarının yerləşməsinin bəzi məsələləri", "Azərbaycan Respublikası regionlarının kitabxana-informasiya resurslarının bəzi məsələləri (Dağlıq Şirvan iqtisadi rayonunun nümunəsində)",



"Biblioqrafiyaşünaslıq üzrə elm və tədris mərkəzi", "Azərbaycan aviasiyasının tarixi biblioqrafik informasiya mənbələrində" və başqa məqalələr biblioqrafiyaşünaslıq elminin müxtəlif aktual sahələrinə işıq salır.

İndiyə qədər dos. Nadir İsmayılov bir sıra beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir. Məsələn, BDU-nun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda "Azərbaycan Respublikasında biblioqrafik fəaliyyətin müasir vəziyyəti və perspektivləri" mövzusunda, eləcə də "Müasir informasiya məkanı və kitabxanalar" mövzusunda keçirilmiş Respublika Elmi Konfransında, Əməkdar elm xadimi, prof. A.Xələfovun 80 illik yubileyinə həsr edilmiş konfransda məruzələrlə çıxış etmişdir.

Dos. Nadir İsmayılov kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmləri sahəsində gənc mütəxəssislərin yetişdirilməsinə də öz töhfəsini verir. Onun elmi məsləhətçiliyi ilə 2 fəlsəfə doktoru hazırlanmışdır. Eyni zamanda son 5 ildə kafedranın bütün əməkdaşlarının dissertasiya işlərinin müdafiəsini təşkil etməsi də onun səmərəli fəaliyyətinin nəticəsidir.

Kafedra müdiri kimi dos. Nadir İsmayılovu fərqləndirən əsas cəhətlərdən biri onun idarəçilikdə təmkinliliyə, tələskənlikdən uzaq durmağa, məsələləri sakit tərzdə həll etməyə üstünlük verməsidir. O, inzibati-amirlik metodlarını qarşılıqlı anlaşma, bir-birinə səmimi hörmət üsulları ilə əvəzləyən, rəhbər-işçi münasibətlərini sakit məcrada tənzimləməyi, ünsiyyət qurmağı bacaran, təşkilatçılığı ilə diqqəti cəlb edən səriştəli kadrlardan biridir.

Kollektivdə hamı Nadir müəllimi qayğıkeş ailə başçısı kimi tanıyır. Bir oğul, bir qız atası kimi o, hazırda həm də iki nəvəsinin sağlam, gümrah böyüməsi üçün xeyir-dua verən sevimli babadır.

Dos. Nadir İsmayılov səmərəli elmi-pedaqoji fəaliyyətinə görə dəfələrlə mükafatlandırılmışdır. Belə ki, o, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanı, nazirliyin Fəxri Fərmanı və Bakı Dövlət Universitetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Dos. Nadir İsmayılov 2014-cü ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir.

Hazırda dos. Nadir İsmayılov "Kitabxanaşunaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq" ixtisası üzrə "Azərbaycanın kitabxana-biblioqrafiya və informasiya resursları: inkişaf mərhələləri, vəziyyəti və təkmilləşdirilməsi yolları" mövzusunda yazdığı doktorluq disertasiya işini tamamlamışdır, müdafiə prosesinə hazırlıqla məşğuldur.

2013-cü ildə Almaniyanın "Lambert" akademik nəşriyyatında "Azərbaycanın kitabxana-biblioqrafiya və informasiya resursları: inkişaf mərhələləri, vəziyyəti və təkmilləşdirilməsi yolları" adlı monoqrafiyası rus dilində çap olunmuşdur.

Vaxtilə məşhur ingilis fiziki İsaak Nyuton deyirdi: "Əgər mən başqalarından daha uzaqları görə bilmişəmsə, onda bu, yalnız nəhənglərin çiyinlərində durduğuma görə mümkün olmuşdur". Bu mənada N.İsmayılov həmişə öz müəllimlərinə hörmət bəsləyən, onların yolunu davam etdirən, həyat və fəaliyyət

21085
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

yollarında ustadların təcrübə və ənənələrdən faydalanan qədirbilən insan kimi tanınır.

Bu məqamda dahi Nizami Gəncəvinin məşhur beytlərini xatırlmamaq olmur:

**Rütbələr içində seçilir biri,**
**Hamıdan ucadır alimin yeri.**
**Elmlə, biliklə, başqa cür heç kəs**
**Heç kəsə üstünlük eyləyə bilməz.**

Yüzillərdir ki, öz dəyərini itirməyən bu misralarda ustad sənətkar alimə bir şəxsiyyət kimi layiqli qiymət verir, onun cəmiyyətdəki mövqeyini, yüksək amalını poetik ustalıqla tərənnüm edir. Bu baxımdan müəllim və alim kimi şərəfli bir ömür yolu seçmiş Nadir İsmayılov hazırda öz elmi-pedaqoji fəaliyyətinin məhsuldar dövrünü yaşayır. Ona bu yolda möhkəm cansağlığı, yeni-yeni uğurlar, elmin daha uca zirvələrini fəth etməyi arzulayırıq.

M.F.Axundov adına
Azərbaycan Milli